

**Xəyal RZA**
**Şair,**
**jurnalist**

## *Sarı çiçəkli matəm bayrağı...*

Bir külək əsəcək sabah...
Vida küləyi
Qurumaqda olan
Bir körpə paltarı yellənəcək ipdə
Sarı çiçəklidir ətəyi
Matəm bayrağına bənzətmişdi onu
Hələ otuz üç il əvvəl
Bir şair...
budur şairin
rəngli həyat hekayəsinin sonu -
sarı çiçəkli uşaq paltarı...
dalğalanan matəm bayrağı...
və sair... və sair...
Bir də
Dar quyu -
Dibi qranlıq və nəm...
Ağrısız filansız
Bir az yatmaq istəyən şairi
Əbədi yatmağa göndərdik bu dəm...
Yandırın qəm içindəki
İşıqları...
Qaldırın bayraqları
Şair... öldü!

## *TƏRSİNƏ*

Yollar tərsinə...
Ümidlər, arzular tərsinə...
Dərd qalaq-qalaq,
Batman-batman...
Yığılıb bir-birinin üstünə...
Aşıb keçməyə oğul istəyir!
Nəfislər format olunub,
Beyinlərə
Modern paxıllıq virusları yüklənib...
Bənzəmək rəqabətə çevrilib...
Hoqqalar dəbdədir,
Bir-birinin qəsdinə!
Gözlər intihar edib,
Yollara dikilmir daha...
əllər yola salır,
qollar qucaq açmır gələnə.
Ürək bərk-bərk döyünmür,
Ritmiylə öyünmür indi...
Yenik düşüb hirsinə!
Şəhərin xarakteri dəyişib,
Yayı yay deyil, qışı qış
Romantik baxışları dəyişib,
Baxış - bir başqa baxış!
İndi adam olmaq da çətindir,
Bu yayda, bu qışda...
Yəni ki, naxış lazımdır, naxış!
Dünya yumurtası tərs dönmüş
Toyuğa bənzəyir.
Adam adamı çıraqla gəzir -
Günün günorta çağında.
Hər şey bambaşqa...
Hər şey tərsinə...
əşşi... bizə nə?!

## *Susub*

Gözümdə bir arzu susur
Yanıb - alışmaq istəmir...
Dilimdə bir sevgi susur
Dinib - danışmaq istəmir...
Əlimdə bir salam susur
Küsüb... barışmaq istəmir...
Ürəyimdə ümid sönür...
Susub! Qarışmaq istəmir.

## *Qoy ölüm sevinsin*

Qoy başını kədərin
Dizləri üstə...
Bir az mərhəmət istə,
bir az sevgi...
Çalış söz verməə ona,
Çalış dərdini aşmasın.
De ki, yolunu ölçsün,
Boyunu ölçməsin.
Söylə ki, ürəyin dolu olsa da,
Dünya cibin kimi boşdu!
Çalış kədərləndirmə kədəri...
De ki, sənə elə onunla da xoşdu.
Bir az üzünü güldür...
Gülümsə kədərinə.
Guya ağlaşma qursan,
Nə gələcək əlinə?!
Bir layiqli ölüm istə...
Rastına çıxsa,
Düz-qoş etsin.
Sən sevinə bilmədin,
Qoy ölüm sevinsin!
Amma ucuz olsun!
Alınası çox şeyin var,
Hələ qisas da almalısan.
Satmağa heç nəyin olmasa da...
Heç vaxtın belə!
Neyləyək...
Baxtın belə!

## *QIRMIZI*

Həsrət - qara rəngdədir,
Kədər - boz rəngdə...
Ümid - mavi rəng,
Nə qəribə ahəng?!
Sarı - qəriblikdir...
Ağ - xoşbəxtlik...
Yaşıl - inamdır,
Qalx bir süfrə aç,
Şam yandır.
Sevginin rəngi - QIRMIZI,
darıxma,
Döyər qapımızı...

## *RƏNGLƏR*

Ağlamaq göz ilə olur,
Gözəlim...
Saç ilə deyil...
Saçlarını qarışdırma.
Yaşlardan küsən gözlərin,
Tətil edir, nə gözəl.
Onları barışdırma!
Gözlərin şabalıdı rəngdə,
Bəs niyə mavi ağlayırsan?..
Deməli, mavi ümidin rəngidir,
Hələ də dönüşümə ümid bağlayırsan!
Mənimsə, göz yaşlarım yoxdur,
Amma mən də ağlayıram...
Qırmızı rəngdə...
Qanımın rəngi...
Ürəyim qan ağlayır!
Qoy mən belə ağlayım,
Mavi rəng ağlayan çoxdur.
Qırmızı dəli rəngidir,
Deyirlər.
İndi inandınmı, dəli tək sevdiyimə?!
Dəli olmayanlar ümidə boyun əyirlər.
Mənim sevdamın rəngi bəlli,
Sənin sevdanın rəngi məlum.
İndi neyləyək biz başı küllü?

## *İTİRDİM*

Bir qırıq sevinci tapıb,
Qəmi itirdim, itirdim.
Qəmimlə yükü bol olan,
Gəmi itirdim... itirdim.
Bəlkə də bir az zor idi,
Sığmırdım, dünya dar idi,
Yaxşıca dəmi var idi,
Dəmi itirdim, itirdim...
Qəlbimi qıran çox oldu,
Tost deyib, vuran, çox oldu,
Başımı yoran çox oldu,
Cəmi itirdim, itirdim.
Qəm daha yaxşıdı, yaxşı,
Budur dünyanın axışı,
Kimdi ömrümün naxışı,
Kimi itirdim?.. itirdim!